# MALİYYƏ HESABATININ **AUDİTİ**



## AUDİTİN HƏCMİ

1. Audit aktı maliyyə hesabatının tətbiq edilən prinsiplərinin bütün aspektlərinə müvafiq olmasını müəyyən edir. Bu akt istənilən maliyyə hesabatının audit nəticəsinə tərtib edilə bilər. Beləliklə, audit aktı misal üçün təşkilatın gələcək fəaliyyətini və ya rəhbərliyin işinin effektivliyini təsdiq etmir. Lakin qüvvədə olan qanuni və normativ aktlar digər konkret məsələlər üzrə akt tərtibini tələb edə bilər. Misal olaraq: daxili nəzarət sisteminin effektivliyi və ya müəyyən bir idarə etmə hesabatının maliyyə hesabatına uyğunluğu. BAS bu məsələlər üzrə tələb və tövsiyələrini qabaqcadan nəzərə almışdır. Əgər öhdəsinə belə bir akt tərtib emək düşərsə, auditor əlavə olaraq digər məsələləri də həll edə bilər.

## MALİYYƏ HESABATININ HAZIRLANMASI

2. Maliyyə hesabatının hazırlanması zamanı rəhbərliyin və sahibkarın nümayəndəsinin öhdəliyi qanuni və normativ aktlarla müəyyən edilir:
• maliyyə hesabatının onun prinsiplərinə uyğun şəkildə hazırlanması;
• rəhbərlik və sahibkarın nümayəndəsinin fikrinə görə daxili nəzarət sisteminin təşkili maliyyə hesabatının hazırlanmasında vacibdir.
• aşağıda sadalananlar auditorun öhdəsinə verilib:
- maliyyə hesabatının hazırlanmasında aidiyyatı olan bütün məlumatlardan istifadəyə icazə verilməsi;
- rəhbərlik və sahibkarın nümayəndəsindən auditin təşkili üçün lazım olan əlavə məlumatların istənilməsi;
- ehtiyac olarsa, təşkilatın işçi heyətindən istifadə.
3. Rəhbərlik və sahibkarın nümayəndəsinin maliyyə hesabatının təşkilində tələb edilir:
• qanuni və normativ aktların tətbiq edildiyi maliyyə hesabatının prinsiplərinin təyini;
• bu prinsiplərə uyğun hesabatın təşkili;
• bu prinsiplərin hesabatda ətraflı təsviri.
Maliyyə hesabatının təşkili zamanı rəhbərlik əsaslı qiymət qoymanı müəyyən etməli, lazımi uçot siyasətini seçməli və şəxsi fikirlərinə arxalanmalıdır.
4. Maliyyə hesabatının onun prinsiplərinə uyğun təşkili aşağıda sadalananların tələblərini ödəmək məqsədi ilə hazırlanıb:
• maliyyə məlumatının geniş istifadəçi kütləsi üçün nəzərdə tutulmuş ümumi tələbləri (ümumi təyinatlı maliyyə hesabatı);
• maliyyə məlumatının konkret istifadəçilər üçün nəzərdə tutulmuş ümumi tələbləri (xüsusi təyinatlı maliyyə hesabatı).
5. Maliyyə hesabatının tətbiq etdiyi prinsiplər əsasən maliyyə hesabatının (qanuni və normativ aktlar və ya standartların təşkili həvalə edilmiş təşkilatlar tərəfindən təyin edilmiş) standartlarını əhatə edir. maliyyə hesabatının prinsiplərinin təcrübədə istifadəsinə dair tövsiyələr standartlarla yanaşı digər mənbələrdə də göstərilə bilər. Digər mənbələrə daxildir:
• təşkilatın normativ aktlar, məhkəmənin qərarı və peşəkar və etik öhdəliklər, mühasibat uçotu ilə əlaqədar məsələlər də daxil olmaqla hüquqi və etik mühiti;
• mühasibat uçotunun qaydalarının standartları təşkil edənlər və peşəkar təşkilatlar tərəfindən nəşri;
• mühasibat uçotunda yaranan problemlərə dair peşəkarların fikirlərinin standartları təşkil edənlər və peşəkar təşkilatlar tərəfindən nəşri;
• ümumilikdə və geniş istifadə olunan (mühasibat uçotu bütövlükdə və xüsusi olaraq təşkilatın fəaliyyət sahəsində) üsullar;
• mühasibat uçotu haqqında ədəbiyyat.
6. Maliyyə hesabatı prinsiplərinin tələbləri maliyyə hesabatının forma və məzmununu təyin edir. Prinsiplər, əsasən, geniş xarakter daşıyır və hesablama üsullarını təyin etməyədə bilər. Prinsiplər uçot siyasətinin təşkili üçün əsas kimi götürülür.
7. Maliyyə hesabatı prinsipləri iki hissəyə - ədalətli təqdim olunmuş prinsip və uyğunlaşmış prinsipə bölünür. Maliyyə hesabatlarının standartlarda əks edilmiş prinsipləri əsasən ədalətli təqdim olunmuş prinsiplərinin maliyyə məlumatlarını təmin etmək üçün təşkil edilir.
8. Prinsiplərinin tətbiq etdiyi tələblər maliyyə hesabatının kompleks şəklində təyin edir. Prinsiplərə əsasən maliyyə hesabatında, maliyyə vəziyyəti, nəticələri və təşkilatın pul axını haqqında olan məlumatların əks olunmasını nəzərdə tutulur. Bu prinsiplərə uyğun olaraq kompleks şəklində maliyyə hesabatına mühasibat balansı, mənfəət və zərər hesabatı daxildir. Bununla yanaşı kompleks şəklində



maliyyə hesabatı bir maliyyə hesabatından və aidiyyatı olan qeydlərdən ibarət ola bilər:

- Məsələn, Maliyyə Hesabatının Beynəlxalq Standartları Dövlət Sektoru üzrə "Kassa üsulu ilə hazırlanan maliyyə hesabatı".
- Maliyyə hesabatları ilə yanaşı aşağıda sadalanan hesabatları da göstərmək olar:

- balans;
- mənfəət və zərər üzrə hesablaşmalar;
- bölüşdürülməmiş mənfəət üzrə hesablaşmalar;
- pul vəsaitinin dövriyyəsi üzrə hesablaşmalar;
- aktiv və öhdəliklər üzrə hesablaşmalar;
- şəxsi kapitalın dəyişməsi üzrə hesablaşmalar;
- gəlir və xərc üzrə hesablaşmalar;

9. Maliyyə hesabatı prinsiplərinin tətbiqi üzrə tələb və tövsiyələrin istifadəsi BAS 210-da təyin edilir. Xüsusi təyinatlı maliyyə hesabatının təşkili prinsiplərinin əsas aspektləri BAS 800-də göstərilir.

10. Audit zamanı başlanğıc nöqtənin vacibliyini nəzərə alaraq, audit məsələsinin ilkin şərti kimi auditor rəhbərlikdən və sahibkarın nümayəndəsindən öhdəlik daşımalarına dair təsdiq almalıdır.

## DÖVLƏT SEKTORUNDA AUDİTİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

11. Dövlət sektorundakı müəssisələrdə maliyyə hesabatını təşkil edən auditorun səlahiyyətləri digər təşkilatlara nisbətən daha genişdir. Maliyyə hesabatının təşkili zamanı auditin əsası kimi rəhbərliyin ilkin öhdəlikləri sırasına qanuni və normativ aktlara müvafiq olaraq əməliyyatların aparılması və sazişlərin bağlanması əlavə edilə bilər.

## AUDİT AKTININ TƏRTİBİNİN FORMASI

12. Audit maliyyə hesabatının tətbiq edilən prinsiplərinin bütün aspektlərinə müvafiq olmasına dair akt tərtib edir. Aktın forması tətbiq edilən prinsip və qüvvədə olan qanuni və normativ aktlardan asılıdır. Prinsiplər əsasən maliyyə hesabatının təsviri ilə əlaqədar tələbləri özündə əks etdirir.

13. Maliyyə hesabatı prinsipləri ədalətli təqdim olunmuş prinsiplərdirsə, BAS-a uyğun olaraq maliyyə hesabatının bütün aspektlərdə ədalətli təsvir edilməsinə dair akt tələb olunur.

*Ramil Bağırov*